# “Beynəlxalq STEAM Azərbaycan Festivalı 2022-ci il haqqında Əsasnamə”
# (Beynəlxalq SAF 2022)

# Mündəricat


1. Ümumi müddəalar ....................................................................................................3
2. "Beynəlxalq STEAM Azərbaycan Festivalı 2022-ci il"in əsas məqsəd və vəzifələri ..........................3
3. Festivaldan gözlənilən nəticələr.......................................................................................4
4. Festivalın təşkili qaydaları və məsul tərəflər ..........................................................................4
5. Festivalda iştirak......................................................................................................4
6. Yarış formatı və kateqoriyalar .........................................................................................5
6. Festival çərçivəsində keçiriləcək yarış kateqoriyaları ..................................................................6
7. Yarış təqvimi..........................................................................................................7
8. Hakim və münsiflər.....................................................................................................8
9. Mükafatlandırma ........................................................................................................8
10. Ümumi qaydalar .......................................................................................................8
11. Etik qaydalar.........................................................................................................9
12. Məsuliyyət bəyannaməsi..............................................................................................10

## 1. Ümumi müddəalar

1.1. Bu Əsasnamə ümumi, orta ixtisas, ali təhsil və məktəbdənkənar təhsil müəssisələrində müxtəlif yaradıcı ideyaları ilə seçilən şagird və tələbələr arasında “Beynəlxalq STEAM Azərbaycan Festivalı 2022-ci il” (Beynəlxalq SAF 2022) keçirilməsi qaydalarını müəyyən edir.

1.2. Festival Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin dəstəyi ilə “STEAM Azərbaycan” layihəsinin təşkilatçılığı ilə keçirilir.

1.3. Festival 5-9 dekabr 2022-ci il tarixində Bakı şəhərində keçiriləcəkdir. Festival 10 kateqoriyada yarış, 1 kateqoriyada isə innovativ layihələr sərgisi olmaqla, festivalın açılış mərasimi, yarışların təşkili, seçim mərhələsi və bağlanış-mükafatlandırılma mərhələləri üzrə təşkil ediləcəkdir.

## 2. “Beynəlxalq STEAM Azərbaycan Festivalı 2022-ci il”in əsas məqsəd və vəzifələri

Festivalın keçirilməsində məqsəd STEAM əsaslı tədrisin təşviqi, şagirdlər arasında XXI əsr bacarıqlarının inkişaf etdirilməsi, yaradıcı, rəqəmsal texnologiya biliciləri olan şagird və tələbələrin aşkarlanması və şəbəkələşməsi, innovasiyalar və rəqəmsallaşma üzrə beynəlxalq təcrübənin öyrənilməsindən ibarətdir.

2.1. Elm və innovasiya, STEAM əsaslı tədris istiqamətinə məqsədyönlü yeniliklərin gətirilməsi, yeniliklərin tətbiqi üzrə mühitin inkişaf etdirilməsi;

2.2. Cəmiyyətin qarşılaşdığı problemlərin həllinə istiqamətlənmiş yaradıcı ideyalarınaşkarlanması və cəmiyyətə təqdim olunacaq şəkildə layihələndirilməsi;

2.3. İnnovativ ideyaları ilə seçilən şagird və tələbələrin yaradıcı mühitlə təmin olunması və müvafiq bacarıqların təkmilləşdirilməsinə dəstəyin göstərilməsi;

2.4. Elm və innovasiya istiqamətində beynəlxalq təcrübələr ilə tanışlıq, həmçinin tətbiqi üçün mexanizmlər və mühitin öyrənilməsi;

2.5. Qeyd olunan istiqamətlər üzrə yeni təhsil yanaşmaları və tədris materiallarının yaradılmasına təkan verəcək mühitin formalaşdırılması;

2.6. İnnovativ mühitdə xalqlar və mədəniyyətlərarası dialoqun qurulması, innovativ gənclərin ölkə və beynəlxalq səviyyədə şəbəkələşməsi və s.

## 3. Festivaldan gözlənilən nəticələr

3.1. Təhsilalanların daha yüksək səviyyədə innovativ texnologiyalar haqqında biliklərininvə onların tətbiqi bacarıqlarının təkmilləşdirilməsi;
3.2. Yeni, gənc və istedadlı təhsilalan və təhsilverən bazasının (qrupunun) yaradılması;
3.3. Yeni və davamlı inkişaf edən sahibkarlıq düşüncəsinin formalaşdırılması;
3.4. Komanda işi və əməkdaşlıq bacarıqlarının yüksəldilməsi;
3.5. Təhsilalanların peşə seçimi üzrə qərarvermə bacarıqlarını formalaşdıran praktik mühitlə təmin olunması;
3.6. Təhsilalanların XXI əsr bacarıqlarının, yaradıcılıq potensialları, mədəni səviyyələri və ünsiyyət bacarıqlarının inkişafı, onlarda ümumilikdə innovativ inkişafın korreksiyası.

## 4. Festivalın təşkili qaydaları və məsul tərəflər

4.1. “Beynəlxalq STEAM Azərbaycan Festivalı 2022-ci il” – Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin rəhbərliyi, maliyyə və təşkilati dəstəyi ilə ölkədə ilk dəfə həyata keçirilən beynəlxalq STEAM Festivalıdır.
4.2. Festivalın keçirilməsi üzrə fəaliyyətin təşkili, koordinasiya işləri və icrasına nəzarət Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin dəstəyi ilə “STEAM Azərbaycan” layihəsinin heyəti tərəfindən təmin olunur.
4.3. Festivalın təşkili və keçirilməsi üçün nazirin müvafiq Əmri ilə təsdiq edilmiş Təşkilat Komitəsi yaradılır. Təşkilat Komitəsi festivalın hazırlığı və keçirilməsi ilə bağlı fəaliyyəti bu Əsasnamə ilə təsdiq edilmiş qaydalar çərçivəsində həyata keçirir.
4.4. Festival 10 kateqoriya üzrə yarış formatında, həmçinin 1 kateqoriya üzrə innovativ layihələr sərgisi formatında təşkil edilir.
4.5. Kateqoriyalar üzrə yarışların qiymətləndirmə mərhələsini müvafiq mütəxəssislərdən təşkil olunmuş münsiflər heyəti həyata keçirir.

## 5. Festivalda iştirak

5.1. Festival çərçivəsində keçirilən yarışlarda ölkədə fəaliyyət göstərən bütün rayon və şəhər ümumtəhsil, peşə təhsili və ali təhsil müəssisələrinin şagird və tələbələri komandalar şəklində müxtəlif kateqoriyalar üzrə yarışlarda iştirak hüququna malikdir. Komandalar yarış kateqoriyları üzrə ümumi təhsil (ibtidai, orta və tam orta), peşə təhsili

və ali təhsil səviyyəsində təhsilalanlardan formalaşaraq, 10 kateqoriya üzrə müraciət edə bilərlər.

5.2. Festival çərçivəsində keçirilən "İnnovativ layihələr sərgisi" kateqoriyası üzrə isə digər təhsil müəssisələrinin təhsilalanları ilə yanaşı orta ixtisas, məktəbdənkənar təhsil müəssisələrindən, həmçinin fərdi qaydada və ya qurumlar adından (hər hansı yaş və hüquqi status fərqi olmadan) müraciətlər qəbul olunur.

5.3. Festivalda iştirak üçün qeydiyyatın başlandığı tarix elan edildikdən sonra komandalar müvafiq kateqoriyalar üzrə ətraflı qaydalarla tanış olacaq və müraciət etmək istədikləri kateqoriya üzrə festivalın rəsmi veb-səhifəsində (https://saf.steam.edu.az/) qeydiyyat formasını dolduracaqlar.

5.4. Hər bir komanda yarışlarda yalnız bir kateqoriya üzrə iştirak haqqına malikdir.

5.5. Festival çərçivəsində iştirakçı ölkə və beynəlxalq səviyyəli komandalar yaşayış, qidalanma və transfer xidmətləri ilə təmin olunacaq. İştirakçıların festivalda iştirak məqsədli səyahət xərcləri (ölkə daxili və xarici ölkədən gəliş-gediş) festival üçün ayrılmış büdcənin xərclər bölgüsündə nəzərdə tutulmur. Buna baxmayaraq, Təşkilat Komitəsinin qərarı ilə hər hansı komandanın festivalda iştirakının tam maliyyələşməsihalları da istisna deyil.

## 6. Yarış formatı və kateqoriyalar

6.1. "Beynəlxalq STEAM Azərbaycan Festivalı 2022-ci il" yarış və sərgi formatında 11 kateqoriya üzrə keçiriləcəkdir. Festivalda hər bir kateqoriya üzrə mütəxəssislər tərəfindən müəyyənləşdirilmiş qayda və təlimatlara uyğun olaraq iştirakçılar komandalar şəklində öz bilik, bacarıq, həmçinin irəli sürdükləri ideyalara uyğun hazırladıqları layihələrlə yarışacaqlar. Sərgi zonasında isə innovativ layihələrin nümayişi nəzərdə tutulur.

6.2. Hər bir kateqoriya üzrə rəsmi veb-səhifədə təyin edilmiş qaydalar üzrə müvafiq seçim mərhələsi aparılacaqdır. Seçim mərhələsindən sonra hər bir kateqoriya üzrə əvvəlcədən müəyyənləşdirilmiş sayda komanda final mərhələsinə vəsiqə qazanacaqdır.

## 7. Festival çərçivəsində keçiriləcək yarış kateqoriyaları:

- **Hakaton (ali təhsil)**

"Hakaton" komandaların birgə əməkdaşlığı nəticəsində müxtəlif problemlərin həll yollarını müəyyənləşdirdiyi, layihələr hazırladıqları və yarışdıqları tədbirdir. Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrini təmsil edən komandalar bu festivalda IoT (Internet of Things) mövzusu ətrafında layihələrini təqdim edəcəklər.

- **Hakaton (ümumi orta, tam orta və peşə təhsili)**

"Hakaton"un əsas məqsədi keçirildiyi müddət ərzində IoT (Internet of Things) mövzusunda müxtəlif layihələrin yaradılmasıdır. Məqsəd orta və tam orta təhsil alan iştirakçılar arasında rəqabət yaradaraq, onların biliklərini yoxlamaq və yeni biliklər qazanmalarına şərait yaratmaqdır.

- **Robotların mübarizəsi (ümumi orta təhsil)**

Robotların mübarizəsi, düzbucaqlı bir sahədə keçirilən və iki robotun komanda işi göstərərək ittifaq şəklində yarışmasıdır. 60 saniyəlik müddət ərzində orta və tam orta təhsil alan iştirakçılar yarışır və xal qazanmaq üçün birgə fəaliyyət göstərirlər.

- **Robotların mübarizəsi (tam orta və peşə təhsili)**

Bu kateqoriya üzrə orta və tam orta təhsil alan komandalar müəyyən sahədə rəqabət aparmaq üçün robotlar dizayn edir, quraşdırır və onları proqramlaşdırırlar. Yarış sahələrində komandalar təsadüfi seçilmiş digər komanda ilə ittifaq yaradır və hər biri ən yüksək komanda sıralaması üçün yarışaraq xal toplayırlar.

- **Axtarış və xilasetmə (ümumi orta təhsil)**

"Beynəlxalq STEAM Azərbaycan festivalı 2022-ci il" çərçivəsində keçiriləcək Axtarış və xilasetmə kateqoriyası üzrə orta təhsil alan iştirakçılar hazırladıqları robotları verilmiş sahədə idarə etmək üçün fərqli alqoritmli proqramlar yazaraq tapşırığı yerinə yetirəcəklər.

- **Axtarış və xilasetmə (tam orta və peşə təhsili)**

Festivalın bu kateqoriyası üzrə orta və tam orta təhsil alan iştirakçılar robotlarını təyin edilmiş ərazidə hərəkət etdirmək üçün quraşdıraraq tapşırığı həll etməyə çalışacaqlar.

- **Xəyal dünyası (ibtidai təhsil)**

Bu kateqoriya çərçivəsində ibtidai təhsil alan iştirakçılar yaradıcılıq qabiliyyətlərini göstərərək qarşılarına qoyulmuş problemi həll edəcək və dizayn bacarıqlarını sərgiləyəcəklər.

- **Balaca robot proqramçıları (ibtidai təhsil)**

Bu kateqoriyada ibtidai təhsil səviyyəsinə aid olan iştirakçılar “Matatalab” robotlarını proqramlaşdıraraq təyin edilmiş robototexnika məsələlərini həll edərək yarışacaqlar.

- **Mexatronika (ümumi orta təhsil)**

“Mexatronika” kateqoriyası üzrə qaydalara uyğun olaraq orta təhsil səviyyəli iştirakçılar, müasir “High tech” alətlərindən istifadə edərək veriləcək tapşırığı yüksək səviyyədə yerinə yetirməyə çalışacaqlar. Tapşırığı yerinə yetirərkən onların 3D printer və CNC lazer kəsim aparatından istifadə etmək seçimləri olacaq.

- **Təhsil dronları (ümumi orta təhsili)**

“Təhsil dronları” kateqoriyasında yarış zamanı orta təhsil alan iştirakçılar dronlarını idarə edərək müəyyən edilmiş maneələrdən keçirməli və verilmiş tapşırığı icra etməlidirlər.

- **İnnovativ layihələr sərgisi (ümumi orta, tam orta, peşə, orta ixtisas, məktəbdənkənar təhsil və ya fərdi – qurum şəklində)**

Bu istiqamət üzrə qeyd edilən bütün təhsil pillələri və sahələri üzrə məktəbli və tələbələrlə yanaşı müxtəlif qurumlar və ya fərdi qaydada yaş məhdudiyyəti olmadan şəxslər hər hansı bir problemin həllinə yönəlmiş olan innovativ layihələrini sərgiləyəcəklər. Layihələr istənilən sahəyə aid ola bilər. Festivalda sərgilənəcək layihələrin seçimi öncədən bu kateqoriyanınmünsifləri tərəfindən aparılacaq.

**Hər bir kateqoriya üçün qaydalar və qiymətləndirmə meyarları haqqında ətraflı məlumat “Beynəlxalq STEAM Azərbaycan Festivalı 2022-ci il”-in rəsmi veb-səhifəsində paylaşılacaqdır.**

## 8. Yarış təqvimi

| Mərhələ | Tarix |
|---|---|
| 22.08.2022 | Yarışın elanı |

| | |
|---|---|
| 31.08.2022 | Müraciətin açılması |
| 01.10.2022 | Kateqoriyaların qaydalarına uyğun olaraq seçim mərhələləri üçün tarixlərinin açıqlanması |
| 20.10 - 10.11.2022 | Seçim mərhələlərinin keçirilməsi |
| 17.11.2022 | Finalçı komandaların açıqlanması |
| 05-09.12.2022 | "Beynəlxalq STEAM Azərbaycan festivalı 2022-ci il"in final mərhələsi |

## 9. Hakim və münsiflər

9.1. Festival çərçivəsində yarışların qiymətləndirmə tələb edən kateqoriyaları üzrə nəticələrin təyin edilməsi və yekun balların hesablanması üçün yerli həmçinin beynəlxalq tərəfdaşların peşəkar və təcrübəli nümayəndələri hakim və ya münsif olaraq iştirak edəcəkdir.

9.2. Hər bir kateqoriya üzrə minimum 3 (üç) münsif və ya hakim heyəti cəlb olunur.

## 10. Mükafatlandırma

10.1. Festivalda müəyyənləşdirilmiş hər kateqoriya üzrə iştirakçı-mükafatçı komandaların seçimi münsif və ya hakim heyəti tərəfindən göstərilən nəticələrə uyğun həyata keçiriləcəkdir. Nümayiş olunan nəticələr münsif və ya hakimlər tərəfindən əvvəlcədən müəyyənləşdirilmiş kriteriyalara və meyarlara uyğun olaraq qiymətləndirmə ilə aparılır.

10.2. Mükafatçıların seçimi 1-ci, 2-ci, 3-cü və həvəsləndirici yerlərə uyğun olaraq aparılacaqdır. Bütün kateqoriyalar üzrə ümumi iştirakçı komandaların 12-15%-i həddində 1-ci yer, 16-31% həddində 2-ci yer, 31-70% 3-cü yer olmaqla mükafatlandırılır.

10.3. Yuxarıda hər hansı bir yerə qeyd olunmuş meyarlara sahib olmayan iştirakçıların motivasiyası məqsədilə müxtəlif həvəsləndirici tədbirlər həyata keçirilə bilər.

## 11. Ümumi qaydalar

11.1. Təşkilat Komitəsi yarış qaydaları, təlimatları, yarış təqvimi və yarışın keçirilməsi

qaydaları ilə razılaşdırılmış bütün spesifikasiyalarda hər hansı dəyişiklik etmək hüququna sahibdir.

11.2. Kateqoriya üzrə koordinator və ya hakimin icazəsi olmadan iştirakçıların yarış ərazisini tərk etməsi və kənardan yardım almağı qadağandır.

11.3. Komandaların rəhbər şəxsləri, iştirakçıların təlimatlara və qaydalara uyğun davranmalarından və hər hansı qaydaların pozulma halına yol verilməməsindən cavabdehdirlər.

11.4. Yarışların təşkili qaydalarına uyğun olmayan, qayda pozuntusu kimi əldə olunmuş cihaz, alət və avadanlıqlar koordinator, hakim və ya nəzarətçi tərəfindən digər komanda rəhbəri və ya üzvlərinin iştirakı ilə sənədləşdirilərək, yarışın sonunadək müsadirə edilir.

11.5. Qayda pozuntusuna görə cavabdeh iştirakçılar və ya komandalara Təşkilat Komitəsi tərəfindən məhdudlaşdırıcı tədbirlər tətbiq edilir.

11.6. İştirakçılar və komandaların hər hansı narazılıq və etirazı olduğu halda yalnız həmin yarış günü yazılı şəkildə elektron poçt ünvanına müraciət etmələri zəruridir. Bu müraciət məktubu “Beynəlxalq STEAM Azərbaycan Festivalı 2022-ci il” üçün iştirakçının qeydiyyatdan keçdiyi elektron poçt ünvanı ilə göndərilməlidir. Təşkilat Komitəsi etiraz və narazılıq müraciətlərinə həmin gün ərzində baxır, onlara dair qərarını qəbul edir və nəticələri elan edir.

11.7. Tədbir qaydaları və ya ona edilmiş hər hansı dəyişiklik haqqında iştirakçılara mərhələlərə uyğun şəkildə məlumat veriləcəkdir.

## 12. Etik qaydalar

12.1. Festival ərazisində və ya yarışma prosesində (yarışların və ya digər tədbirlərin keçirilməsi zamanı və ya hesabat mərhələləri, qiymətləndirmə prosesi və s.) ictimai əxlaqa zidd hal, hərəkət, çıxış və s. edən iştirakçı və ya komandalar yarışdan kənarlaşdırılacaqdır.

12.2. Festival ərazisində digər komandaların fəaliyyətinə və motivasiyasına təsir edəcək vəziyyətlər, hərəkətlər, sözlər və s. nümayiş olunmamalıdır.

12.3. Dil, din, fəlsəfi inanc, siyasi fikir, irq, yaş və cinsi ayrıseçkilik qoyulmadan, festival ərazisində bərabər imkanlara mane olan davranış və ya digər hallara yol vermədən, təşkilat komitəsi tərəfindən təklif olunan bütün növ xidmətlərdə tələblərə uyğun olaraq obyektiv davranmağa diqqət yetirilməlidir. Bununla yanaşı festivalın keçirildiyi ərazidə, yarışmalar və ya digər tədbirlərin keçirilməsi prosesində (festivalın məqsəd və

vəzifələrinə birbaşa xidmət etməyən) hər hansı xeyriyyəçilik, dini, siyasi və s. təbliğiniəks etdirən fəaliyyət yolverilməzdir.

## 13. Məsuliyyət bəyannaməsi

13.1. Təşkilat komitəsi festival zamanı hər hansı iştirakçı və ya qonaq tərəfdən verilmiş xəbər, elan, fors-major hallarla bağlı, həmçinin komanda və ya iştirakçı davranışı və ya diskvalifikasiya nəticəsində yaranan, eləcə də müsabiqə iştirakçılarının bir-birinə və ya komandaların üçüncü şəxslərə və s. vurduğu psixoloji, sosial, fiziki ziyan və zərərəgörə məsuliyyət daşımır.

13.2. Hal-hazırda COVID-19 pandemiyasının davam etdiyini nəzərə alaraq, keçirilən müsabiqə və fəaliyyətlərdə ictimaiyyətin sağlamlığı və təhlükəsizliyi əsas prioritet kimi qəbul edilmişdir. Festivalın təşkili zamanı və ya hər hansı risk faktoru aşkarlandıqda "Yoluxucu, parazitar və kütləvi qeyri-yoluxucu xəstəliklərin əmələ gəlməsi, yaxud yayılması təhlükəsi yarandıqda karantin-təşkilat, profilaktika və digər zəruri tədbirlərin görülməsi Qaydaları"nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 28 fevral 2020-ci il 73-1 Qərarı, həmçinin Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 10 sentyabr tarixli 332 nömrəli Qərarı ilə təsdiq edilmiş "Xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasında fəaliyyət göstərən təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin təşkilinin müvəqqəti qaydaları"ndan irəli gələn tələblərə riayət olunacaqdır.

13.3. Tədbirin qapalı məkanda keçirilməsini nəzərə alaraq, Azərbaycan Respublikasının aidiyyəti üzrə qanunvericiliyin tələblərinə uyğun olaraq mütləq qaydada iştirakçılar tərəfindən COVİD-19 vaksin və ya immun sertifikatı tələb ediləcəkdir.